

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 198 (23.840)

*26 oktyabr 2021-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayonunda səfərdə olublar.

Dövlətimizin başçısı və birinci xanım Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində, "Azərenerji" ASC-nin sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışlarında iştirak ediblər.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.



## Şərur rayonunun Dərvişlər kəndində yeni sosial obyektlər istifadəyə verilib

Bu gün muxtar respublikada kəndlərin inkişafına göstərilən qayğı, tikilən yeni sosial obyektlər əhalinin rahat yaşayışını və inkişafı təmin etmişdir. Şərur rayonunun Dərvişlər kəndi də hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş, yeni sosial obyektlər istifadəyə verilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: *"...Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdirir".*

## Dərvişlər kənd məktəbində müasir tədris şəraiti yaradılıb





Oktyabrın 25-də Dərvişlər kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 2 mərtəbədən ibarət olan 198 şagird yerlik məktəbdə 11 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 2 elektron lövhəli sinif, hərbi kabinə, şahmat sinfi, kompüter, psixoloq və müəllimlər otaqları, STEAM kabinəsi, kitabxana, qarderob, idman zalı və təsərrüfat otağı yerləşir. Kitabxana fondunda 3282 kitab vardır.

STEAM kabinəsində 1 elektron lövhə, 2 kompüter, 3D printer quraşdırılmış, eyni zamanda kabinə mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları, yeni nəşr olunan ədəbiyyat və dərsliklərlə təchiz olunmuşdur. Şagirdlər hazırladıqları "3D avtomatik yemləmə qurğusu", "Məsafəölçən cihaz" və "Temperaturölçmə cihazı" layihələrini təqdim etmişlər.

Müəllim Münəvvər Seyidsoy yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir: "Bu gün Şərur rayon Dərvişlər kənd tam orta məktəbində STEAM kabinəsi yaradılmışdır. Yaradılan şərait imkan verir ki, şagirdlər praktik olaraq öz ideyalarını müstəqil şəkildə layihələr hazırlamaqla reallaşdıra bilsinlər. Məktəbdə STEAM təlim metodunun tətbiqi tədrisdə yeni təlim üsullarının öyrənilməsinə, analitik, yaradıcı, yenilikçi, ixtira edən, gələcəyin peşəkar gənclərinin yetişməsinə öz töhfəsini verəcəkdir".

Məktəbdə internetə çıxışı olan 22 kompüter və 4 elektron lövhə quraşdırılmışdır. Ali Məclisin Sədri elektron lövhəli sinifdə Tarix Muzeyi ilə 200-dən artıq təhsil müəssisəsi arasında "Moskva və Qars müqavilələri" mövzusunda keçilən interaktiv dərsi izləmişdir.

Məktəbin kimya, biologiya və fizika laboratoriyalarında ən müasir avadanlıqlar quraşdırılmışdır ki, bununla da şagirdlər keçilən dərsləri təcrübələr vasitəsilə daha yaxşı mənimsəyəcəklər.



Dərvişlər kənd tam orta məktəbinin idman zalındakı şərait, həmçinin açıq idman qurğuları bədən tərbiyəsi dərslərinin yüksək səviyyədə tədrisinə imkan verəcəkdir. Məktəbdə basketbol və tennis idman növləri üzrə idman klubları yaradılmışdır. Hər cür təchizata malik olan hərbi kabinədə şagirdlər ilkin hərbi biliklərə yiyələnəcək, şahmat sinfində isə onların hərtərəfli inkişafı təmin ediləcəkdir.

Ali Məclisin Sədri idman dərslərinin keçirilməsinə xüsusi diqqət yetirilməsi barədə tapşırıq vermişdir.

Şahmat müəllimi Məzahir Süleymanov minnətdarlıq edərək demişdir: "Bu gün müasir formada tikilərək istifadəmizə verilən məktəb binasında dərsləri günün tələbləri səviyyəsində keçmək üçün hər cür şərait yaradılmışdır. Lazımi əyani vasitələrlə təchiz olunan şahmat sinfi gənclərin hərtərəfli inkişafını təmin edəcək və şahmata olan marağı daha da artıracaqdır".

Ali Məclisin Sədri birinci sinifdə təhsil alan şagirdlərin dərs prosesi ilə maraqlanmışdır.

Sonra məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikanın bütün rayonlarında təhsil müəssisələrinin infrastrukturu yenilənir, maddi-tədris bazası möhkəmləndirilir. İşıqlı sinif otaqları, müasir elektron lövhələr, kompüterlər, laboratoriyalar, fənn kabinələri, zəngin fonda malik kitabxanalar, idman zalları şagirdlərin istifadəsinə verilir. Cari ilin ötən dövründə Şərur rayon Şəhriyar, Babək rayon Araz, Ordubad rayon 1 nömrəli, Nüsnüs və Əndəmic kənd tam orta məktəbləri yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda Şərur rayon Çərçiboğan, Babək rayon Sirab, Göynük, Ordubad rayon Vələver, Pəzməri və Dırnıs məktəblərində tikinti-quruculuq işləri aparılır. Ali Məclis Sədrinin müvafiq Sərəncamları ilə yaradılan Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Lisey və STEAM Təlim Tədris Mərkəzi üçün də binaların tikintisi davam etdirilir. Muxtar respublikanın digər rayonları kimi, Şərur rayonunda da təhsilin müasir tələblər səviyyəsində qurulması, ümumtəhsil məktəblərinin maddi-tədris bazasının yaxşılaşdırılması diqqətdədir. Dərvişlər kənd tam orta məktəbinin də maddi-tədris bazası yaxşılaşdırılmış, tədrisin yüksək səviyyədə təşkili üçün müasir şərait yaradılmışdır. Rəhman Məmmədov göstərilən hərtərəfli diqqət və qayğıya görə muxtar

*Ardı 2-ci səhifədə*



respublikanın təhsil işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Məktəbin gənc müəllimi Billurə Novruzova minnətdarlıq edərək demişdir: “Muxtar respublikada yaşayış məntəqələri müasirləşir, kəndlərdə şəhər infrastrukturu yaradılır, kompleks quruculuq işləri aparılır, yeni sosial obyektlər istifadəyə verilir. Bunun nəticəsində insanların rahat yaşayışı təmin edilir. Bu gün Dərvişlər kəndi də müasir kəndlər sırasına qoşulur. Burada yaradılanlar insan amilinə verilən dəyər, dövlət qayğısının bariz nümunəsidir. Bu gün istifadəmizə verilən müasirtipli Dərvişlər kənd tam orta məktəbi bütün müəllim, şagird və valideynlər üçün böyük hədiyyədir. Artıq şagirdlər ən müasir təhsil şəraitinə malik məktəbdə elmin sirlərinə yiyələnəcəklər. Bundan böyük diqqət və qayğı ola bilməz. Söz veririk ki, bundan sonra da müəllim adını uca tutacaq, savadlı və vətənpərvər gənclər yetişdirəcəyik”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Dərvişlər kənd tam orta məktəbinin kollektivini yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Yeni məktəb binası müasir tədrisin tələblərinə tam cavab verir. Bu da müəllimlərə öz vəzifələrini layiqincə yerinə yetirməyə və şagirdlərin yaxşı təhsil almasına imkan verəcəkdir. Yaradılan şəraitdən səmərəli istifadə etməli, müəllimlər tələbkar, şagirdlər çalışqan olmalı, məktəblə ailə arasında sıx əlaqə qurulmalıdır.

“Məktəbin nailiyyətləri qənaətbəxşdir və muxtar respublikanın ümumi orta göstəricisindən yüksəkdir”, – deyən Ali Məclisin Sədri bu münasibətlə kollektivə təşəkkürünü bildirmişdir. Qeyd olunmuşdur ki, nailiyyətlərinin yüksək olmasının əsas səbəbi təhsil ocağında müəllim-şagird münasibətlərinin düzgün qurulmasıdır. Ölkəmizin gələcəyi təhsilli və vətənpərvər gənclərdən asılıdır. Məktəblərdə gənclər bu ruhda hazırlanmalıdır. Digər bir tərəfdən məktəbdə yeni texnologiyalar da nəzərə alınmış, STEAM kabinəsi qurulmuşdur. Çünki yeni texnologiyalar günün tələbidir. Bu gün orta məktəbi bitirən gənclər kompüterdən və internetdən sərbəst istifadə etməyi bacarmalıdırlar. Elektron lövhə və dərsliklərdən düzgün istifadə olunarsa, şagirdlər dərslərini əzbərləmə yolu ilə deyil, qavrama yolu ilə mənimsəyərlər. Bu da onların inkişafında əsas şərtdir. Bir sözlə, məktəbin bugünkü imkanları gələcək





nailiyyətlərin əsasıdır.

“Gənclərin təlim-tərbiyəsi təkcə məktəbin işi deyil, ailələr də təlim-tərbiyə işinə cəlb olunmalı, məktəb-ailə münasibətləri formalaşmalı, inkişaf etdirilməlidir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu, gənclərin hazırlanmasında əsas amildir və ailənin təlim-tərbiyədən kənarda qalmamasını təmin edir. Ona görə də məktəb işi ümumxalq işi kimi qəbul edilməli, müəllim-valideyn münasibətləri davamlı olmalıdır. Bu da imkan verəcək ki, gənclər həm təhsilli və vətənpərvər, həm də milli dəyərlər əsasında yetişsinlər.

Ali Məclisin Sədri yaradılan şəraitdən düzgün istifadə ediləcəyinə əminliyini bildirmişdir.

Binanın həyətində bufet və qazanxana tikilmiş, açıq idman qurğuları quraşdırılmış, stadion yenidən qurulmuş, abadlıq və yaşıllıq işləri aparılmışdır.

## “Araz” Elm-İstehsalat Birliyinin Şərur Dayaq Məntəqəsi yenidən qurulub



Muxtar respublikanın ən böyük yaşayış məntəqələrindən olan Şərur rayonunda iqtisadiyyatın bütün sahələri inkişaf etmiş, aqrar sahədə islahatların əhatə dairəsi genişlənmişdir. Bunun nəticəsidir ki, Şərur artıq aqrar sahədə inkişafın yeni mərhələsini yaşayır. Rayonda torpaq mülkiyyətçilərinin keyfiyyətli toxum sortları ilə təmin edilməsində və əkinçilikdə yeni metodların tətbiqində Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin Şərur Dayaq Məntəqəsi mühüm rol oynayır.

Oktyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dayaq məntəqəsində yaradılan şəraitlə tanış olmuşdur.

Ali Məclisin Sədri çıxış edərək demişdir: “Araz” Elm-İstehsalat Birliyinin Şərur Dayaq Məntəqəsi də bu gün yenidən qurularaq kollektivin istifadəsinə verilir. Burada fəaliyyət üçün hərtərəfli şərait yaradılmışdır. Şərur rayonunun çox qədim əkinçilik ənənələri vardır. Uzun illər burada istehsal olunan məhsullar ölkəmizin qida təhlükəsizliyini təmin etmişdir. Dayaq məntəqəsi həmin əkinçilik ənənələrini qorumalı, davam etdirməli, qədim və yerli meyvə sortlarının, dənli bitkilərin və digər ərzaq məhsullarının bərpası sahəsində iş aparılmalıdır. Balansda olan 8,1 hektar ərazi müəssisəyə gəlir gətirməlidir.

Ali Məclisin Sədri yaradılan şəraitə görə kollektivi təbrik etmiş, gələcək təcrübə işlərində uğurlar arzulamışdır.

Ali Məclisin Sədri “Araz” Elm-İstehsalat Birliyinin Şərur Dayaq Məntəqəsi ərazisində əkilən buğda, arpa, yerli qarğıdalı, eləcə də meyvə və çərəz sortları nümunələrinə baxmışdır. Qeyd olunmuşdur ki, ərazidə Şərur şəraitində yerli “Qarabağlar”, “Xələc” və türk mənşəli “Bayram-1” soğan sortlarının gübrə normalarının, yeni texnologiyaların tətbiqi və qida mühitinin əkin sıxlığının məhsuldarlığına təsiri elmi əsaslarla öyrənilir.



Binaya baxış zamanı məlumat verilmişdir ki, burada 3 iş otağı, qarderob və anbar yerləşir. Məntəqənin istifadəsində 2,8 hektar kolleksiya meyvə bağı, 2 hektar taxıl, 0,8 hektar təcrübə sahəsi, 2 hektar yağlı dənli bitkilər üçün sahə və 0,5 hektar köməkçi sahə olmaqla, 8,1 hektar torpaq sahəsi vardır. Məntəqənin əsas istiqaməti elmi-tədqiqat, maarifləndirmə, elmi yeniliklərin tətbiqi, genofondun qorunması, toplanması və yayılmasıdır.

Məntəqə müdiri Azər Qafarov minnətdarlıq edərək demişdir: “Əvvəllər dayaq məntəqəsinin binası yararsız vəziyyətdə idi, uçmaq təhlükəsi var idi. İndi isə fəaliyyətimizi günün tələbləri səviyyəsində qurmaq üçün hər cür şərait yaradılmış, ərazi çəpərlənmişdir. Biz də yaradılan şəraitə uyğun olaraq çalışacağıq ki, muxtar respublikada məhsuldarlığın inkişafına öz töhfəmizi verək”.

## Dərvişlər kənd mərkəzində hərtərəfli şərait yaradılıb

Oktyabrın 25-də Dərvişlər kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, ikimərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv, statistika otağı, klub və 38 yerlik zal yerləşir. Kitabxana fondunda 3945 kitab vardır. Rabitə evində 256 nömrə tutumlu yeni nəsil ATS quraşdırılmışdır. Kənddə 48 internet istifadəçisi vardır.

Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının 84 üzvü vardır ki, onlardan da 18-i gənc, 18-i isə qadındır. Ərazi ilk təşkilatının sədri İsmayıl Ağayarov yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir: “Ali Məclis Sədrinin gəlişi muxtar respublikamızın hər yerində olduğu kimi, bizim kəndimizdə də böyük ruh yüksəkliyi yaratmışdır. Həyata keçirilən quruculuq işləri kəndimizə müasir görkəm vermişdir. Bu gün istifadəyə verilən müasir sosial obyektlər kənd sakinlərinin rahat yaşayışını təmin edəcəkdir. Bütün bunlar isə hakim partiya olan Yeni Azərbaycan Partiyasının fəaliyyətinin nəticəsində mümkün olmuşdur. Təşkilatımızın üzvləri kənddə

*Ardı 3-cü səhifədə*







gedən bütün siyasi proseslərdə fəallıq göstərirlər".

Bildirilmişdir ki, kənddə əsas diqqət yetirilən sahələrdən biri də baytarlıq işinin təşkilidir. Aparılan profilaktik tədbirlərin nəticəsidir ki, rayonda bu sahədə heç bir xəstəlik müşahidə olunmur.

Ali Məclisin Sədri dezinfeksiya işlərinin vaxtında aparılması və dərmanla təminat barədə tapşırıqlar vermişdir.

Yaşayış məntəqələrində yeni səhiyyə müəssisələrinin tikilməsi sakinlərin hərtərəfli tibbi xidmətlə təmin olunmasına imkan verir. Kənd mərkəzinin birinci mərtəbəsində yerləşən feldşer-mama məntəqəsində məntəqə müdiri, mama və manipulyasiya otaqları vardır. Məntəqə ginekoloji müayinə masası və alət dəsti, təcili yardım çantası, qlükometr, boyölçən, tərəzi, soyuducu və digər tibbi ləvazimatlarla təchiz edilmişdir.

Məntəqə müdiri Nəzakət Mehdiyeva yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir: "Əvvəllər uyğunlaşdırılmış binada fəaliyyət göstərirdik. İndi bizim üçün müasir iş şəraiti yaradılmış, feldşer-mama məntəqəsi zəruri tibbi avadanlıqlarla təmin olunmuşdur. Bu qayğıya cavab olaraq bundan sonra da daim əhalinin sağlamlığının keşiyində duracağıq".

Ali Məclisin Sədri tibbi xidmətin, peyvənd və patronaj işinin təşkili, eləcə də səhiyyə maarifinə üstünlük verilməsi, rayon mərkəzi xəstəxanasından həkim briqadalarının bura göndərilməsi barədə tapşırıqlar vermişdir.

## Abad kənd yolundan bəllidir



İqtisadi inkişafın başlıca şərtlərindən biri də yol infrastrukturunun yaradılmasıdır. Muxtar respublikada yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması həyata keçirilən quruculuq işlərinin əsas tərkib hissəsidir. Naxçıvan şəhərində olduğu kimi, rayon və kəndlərdə də avtomobil yolları müasir tələblər səviyyəsində yenidən qurulur. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində Dərvişlər kənd avtomobil yolu yenidən qurulmuşdur.

Oktyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolda yaradılan şəraitlə maraqlanmışdır.

Bildirilmişdir ki, ümumi uzunluğu 4,8 kilometr olan yola asfalt örtük salınmış, 800 metrlik kənddaxili yollara qum-çınqıl qatı verilmiş, 20 su keçidi qoyulmuş, 1100 metr beton su kanalı çəkilmişdir.



## Yeni xidmət mərkəzində 5 nəfər işlə təmin olunub






Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Dərvişlər kəndində xidmət mərkəzinin də açılışını etmişdir.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, anbar, ərzaq və təsərrüfat malları mağazaları yerləşir. Burada xidmətin təşkili üçün nümunəvi şərait yaradılmış, 5 nəfər işlə təmin olunmuşdur.

Mərkəzdə ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların satışına üstünlük verilir.

Ali Məclisin Sədri tələbata uyğun məhsulların satışının həyata keçirilməsi barədə tapşırıq vermişdir.

Sonra sakinlərlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sakinləri Dərvişlər kəndinin abad yaşayış məntəqələri sırasına daxil olması münasibətilə təbrik edərək demişdir: Bu gün Dərvişlər kəndində həyata keçirilən işlər əhalinin rahat yaşayışına xidmət edir. Bu işlərin görülməsi üçün ölkənin gərək imkanları olsun. Azərbaycanda bütün bunlar vardır. Ulu öndər Heydər Əliyev siyasi xətti ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. İqtisadi imkanlar artdıqca həyata keçirilən quruculuq işlərinin miqyası da genişlənir, yeni iş yerləri açılır. Eyni zamanda iqtisadi imkanlar imkan verdi ki, işğal altında olan torpaqlarımız azad olundu. Bu gün həmin ərazilərdə quruculuq işlərinin həyata keçirilməsinə başlanılıb, bu ərazilər də yaxın zamanlarda ölkəmizin abad, məhsuldar və gözəl guşələrindən birinə çevriləcəkdir. Kənddə yaradılan şərait torpaqlardan səmərəli istifadə etməyə imkan verəcək. Kəndin 200 hektara yaxın məhsuldar torpaq sahəsi vardır. Su ilə təminatda, məhsulların satışının həyata keçirilməsində heç bir problem yoxdur. Ona görə də torpaqlar əkilməli, kəndin abadlığı bundan sonra da davam etdirilməli, qurulanlar qorunub saxlanılmalıdır.

*Ardı 4-cü səhifədə*

Ali Məclisin Sədri kompleks quruculuq işlərinə görə sakinləri bir daha təbrik etmişdir.

Dərvişlər kənd sakinləri adından minnətdarlıq edən təqaüdçü Məhəmməd Mehdiyev demişdir: “Muxtar respublikada quruculuq işləri sürətlə aparılır və hər tərəf günü-gündən gözəlləşir. Bütün bölgələrdə yeni tipli məktəb binalarının salınması gənc nəslin elmli, savadlı olması və dünyagörüşünün formalaşmasına böyük təsir edir. Bu gün bizim də kəndimizdə müasir tələblərə cavab verən məktəb binasının, kənd və xidmət mərkəzlərinin, yeni çəkilmiş yolun istifadəyə verilməsi kənd sakinləri arasında böyük sevinclə qarşılanır. Bu il mənim üç nəvəm ali məktəbə qəbul olmuşdur. Bu da təhsilə göstərilən qayğının nəticəsidir. Xidmət mərkəzində, əsasən, yerli məhsullar satılır ki, bu da muxtar respublikanın günü-gündən inkişaf etdiyinin bariz nümunəsidir. Kənd sakinləri, əsasən, əkinçilik və maldarlıqla məşğul olur. Təsərrüfat sahibləri istehsal etdikləri məhsulların bazarlarda rahat satışını təşkil edərək büdcələrini daha da zənginləşdirir, güzəranlarını yaxşılaşdırırlar. Əvvəlcə rayona gedib-gəlmək çətin idi, çox əziyyət çəkirdik. İndi isə yollarımız abadlaşmış, kəndin küçələri asfalt örtüklə örtülmüş, telefon, internet, qaz və elektrik xətləri yenilənmişdir. Bir sözlə, kəndimiz öz simasını tamamilə dəyişərək şəhər görkəmi almışdır. Görülən bütün işlər Dərvişlər kənd sakinlərinə böyük qayğıdır. Biz də söz veririk ki, bundan sonra da təsərrüfatlarımızı genişləndirəcək, torpaqlarımızı əkib-becərəcək, kənd təsərrüfatının inkişaf etdirilməsində əlimizdən gələni əsirgəməyəcək, qurulub-yaradılanları göz bəbəyimiz kimi qoruyacaq və gələcək nəsillərə ötürəcəyik”.

Ali Məclisin Sədri Xanlıqlar-Dəmirçi avtomobil yolunun kənarlarına yaşıllıqların salınması barədə tapşırıq vermişdir.

* * *

Dərvişlər kəndində yeni sosial obyektlər tikilərkən bir sıra abadlıq işləri də görülmüşdür. Kənddə 2037 metr yeni fiber-optik, 1300 metr yeraltı kabel, 1900 metr hava xətti çəkilmişdir. Həmçinin elektrik təsərrüfatı tamamilə yenilənmiş, 35 ağac dayağa beton gövdə bərkidilmiş, 5650 metr məsafədə məftil naqillər kabel xətti ilə əvəz edilmiş, 1500 metr hava elektrik verilişi xətti çəkilmiş, 300 metr yerüstü elektrik xətti yeraltı kabel xətti ilə əvəz olunmuş, 2 az güclü transformator 1 ədəd 400 kVA-lıq transformatorla əvəz edilmişdir. Bundan başqa, 150 poqonometr polietilen borularla yeni tikililərə qaz xətti çəkilmiş, 2350 poqonometr qaz xəttində təmir-bərpa işləri aparılmışdır. Eyni zamanda 1420 metr içməli su xətti çəkilmiş, suvarma arxında 900 metr lildən təmizləmə işləri aparılmış, subartezian quyusuna 2 paylayıcı quraşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## “Əkinçi”nin 100 yaşlı varisi” adlı yubiley tədbiri keçirilib



*Dünən Naxçıvan Şəhər İcra Hakimiyyətində “Şərq qapısı” qəzetinin 100 illik yubileyinə həsr olunmuş “Əkinçi”nin 100 yaşlı varisi” adlı tədbir təşkil edilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva bildirib ki, muxtar respublikada kütləvi informasiya vasitələrinə yüksək diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncam imzalayıb, burada qəzet haqqında çox dəyərli fikirlər öz əksini tapıb. Sərəncamda da qeyd olunduğu kimi, birəsrlik zəngin tarixə malik “Şərq qapısı” qəzeti təkcə Naxçıvanın ictimai-siyasi həyatında deyil, bütövlükdə, Azərbaycanın ictimai fikir tarixində mühüm rol oynayıb. Qəzet 1990-1993-cü illərdə – ümummilli lider Heydər Əliyevin muxtar respublikamızda yaşayıb, işlədiyi dövrdə müstəqilliyimizin möhkəmləndirilməsi yolunda həyata keçirilən tədbirləri geniş şəkildə işıqlandırıb, müstəqillik və demokratiya uğrunda gedən mübarizədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib. Ötən dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri qəzetin inkişafına böyük qayğı göstərib, qəzetin yeni binası istifadəyə verilib, maddi-texniki bazası möhkəmləndirilib, kütləvi informasiya vasitələri əməkdaşlarının əməyi yüksək qiymətləndirilib.

Çıxışda vurğulanıb ki, muxtar respublikada mətbuatın inkişafına göstərilən hərtərəfli qayğıdan Naxçıvan Şəhər İcra Hakimiyyətinin orqanı “Nuh yurdu” qəzetinə də pay düşüb, bu qayğıdan bəhrələnən qəzet kəmiyyət və keyfiyyət etibarilə özünəməxsus inkişaf yolu keçib.

Təhminə Mustafayeva qəzetin kollektivini Naxçıvan şəhər ictimaiyyəti adından yubiley münasibətilə təbrik edib, onlara yaradıcılıq uğurları arzulayıb.

“Şərq qapısı” qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova çıxış edərək bildirib ki, əsryarımlıq milli mətbuat tariximizin bir əsri “Şərq qapısı” qəzeti ilə bağlıdır. Muxtar respublika nə dərəcədə ölkəmizin ictimai-siyasi həyatında, dövlətçilik, milli müstəqillik uğrunda mübarizə tarixində, müstəqillik ideyalarının pərvəriş tapmasında böyük rol oynayıbsa, “Şərq qapısı” da milli mətbuat tariximizdə həmin rola, həmin nüfuza malikdir. Diqqətə çatdırılıb ki, 1921-ci ilin noyabrında Gənclər İttifaqının orqanı olan “Cavanlar həyatı” qəzetinin nəşri ilə Naxçıvanda qəzetçiliyin təməli qoyulub, hələ XIX əsrin 90-cı illərindən meydana gələn qəzet nəşr etdirmək ideyası, nəhayət ki, gerçəyə çevrilib. 1921-ci ilin dekabrından “Füqəra səsi”, 1922-ci ilin aprel ayından “Şərq qapısı” adı ilə nəşr edilən qəzet müxtəlif tarixi mərhələlərdə ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasında, millilik və maarifçilik ideyalarının təbliğində mühüm rol oynayıb. Sovet-totalitar rejiminin ən qatı tüğyan etdiyi zamanlarda belə, millilik amilimizi, dəyərlərimizi, vətənpərvərliyimizi, Azərbaycançılıq ideologiyasını müdafiə edib, İkinci Dünya müharibəsi illərində həm arxa, həm də ön cəbhədə qətiyyətlə mübarizə aparıb. Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra qəzet qayğı ilə əhatə olunub, onun nəşrinə xüsusi diqqət yetirilib, böyük formatda gündəlik nəşri təmin edilib.



Vurğulanıb ki, qəzetin yubileylər tarixi çərçivəsində 50 illik yubileyi ümummilli liderin rəhbərliyi ilə ən yüksək səviyyədə qeyd olunub, “Şərq qapısı” SSR-nin ovaxtkı ali dövlət mükafatı – “Şərəf nişanı” ordeni ilə təltif edilib. Böyük siyasi xadim Naxçıvana qayıtdıqdan sonra “Daha susa bilməzdim” adlı ilk müsahibəsini də məhz “Şərq qapısı” qəzetinə verib, bu müsahibədə qəzeti çox yüksək dəyərləndirib. Həmçinin ulu öndər Heydər Əliyevin “Şərq qapısı” qəzetinin 75 illik yubileyində ölkə başçısı kimi qəzetə təbrik teleqramı ünvanlaması ölkə mətbuatı tarixində nadir hadisə idi.

Bildirilib ki, müstəqillik illərində muxtar respublikamızda mətbuatın inkişafı daim diqqət mərkəzində saxlanılıb. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin yaradılması, “Şərq qapısı”nın 75, 80, 85, 90 illik yubileylərinin yüksək səviyyədə qeyd edilməsi, Ali Məclis Sədrinin media qurumlarının nümayəndələri ilə müntəzəm görüşlərində tapşırıq və tövsiyələrini verməsi, 2005-ci ildə Mətbuat Şurasının yaradılması, bu şuranın 2019-cu ildən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının üzvü kimi fəaliyyət göstərməsi, “Şərq qapısı”nın indiki binasının istifadəyə verilməsi, saytının yaradılması və yenilənməsi, qəzetlərin rəngli formatla nəşrə başlaması, Naxçıvan Muxtar Respublikası Medianın İnkişafı Agentliyinin yaradılması və digər tədbirlər mətbuata göstərilən ən böyük diqqət və qayğıdır. Bu gün yalnız kağız formatında deyil, elektron şəkildə də istənilən şəxs muxtar respublikamızın gündəlik həyat ritmini, inkişaf tempini, yenilikləri ictimai-siyasi prosesləri dünyanın istənilən nöqtəsindən çox rahatlıqla izləyə bilir. Jurnalistikaya olan dövlət qayğısı və media siyasətinin paralel şəkildə aparılmasının bir nümunəsi də gənc jurnalist kadr potensialının formalaşdırılmasıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı isə jurnalistikaya, eyni zamanda yaradıcı mühitə, ziyalılığa verilən böyük qiymətdir.

Baş redaktor göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında qeyd edib ki, “Şərq qapısı” qəzeti həyata vəsiqə alan bir gündən xalqın maariflənməsinə, onun dünəninin, bu gününün öyrənilməsinə, Azərbaycan elmi və ədəbi mühitinin inkişafına böyük töhfələr verib. Həmişə tarixi amala, sarsılmaz əqidəyə xidmət edib, haqqın, ədalətin carçısı olub insanları saf ideallar uğrunda mübarizəyə səsləyib, Azərbaycançılıq məfkurəsinin həyata keçirilməsinə xidmət edib. Bu mətbu orqan hər bir oxucuda Azərbaycanın sabahına inam yaratmaq funksiyasını ləyaqətlə daşıyıb. Buna görədir ki, qəzet azad və demokratik cəmiyyətdə, Azərbaycanın mətbuat sistemində özünə layiqli yer tutub. “Şərq qapısı” kollektivi bu gün də üzərlərinə düşən şərəfli missiyanı uğurla davam etdirir.

Qeyd olunub ki, Naxçıvan Şəhər İcra Hakimiyyətinin mətbu orqanı olan “Nuh yurdu” qəzeti də bu günün salnaməsinin yaradılmasında uğurlu fəaliyyət göstərir. Qəzet əməkdaşlarının milli dəyərlərimiz, dövlət gənclər siyasəti, ordu quruculuğu, vətənpərvərlik və digər mövzularda hazırladıqları məqalələr oxucular tərəfindən maraqla qarşılanır. Bütün bunlar Ali Məclis Sədrinin mətbuata göstərdiyi diqqət və qayğının təzahürüdür.

Rövşən Hüseynov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***“Hər bir jurnalist öz qələmi ilə Vətəninə, xalqına xidmət etməlidir”*** kəlamını xatırladaraq kütləvi informasiya vasitələri əməkdaşlarına bu yolda uğurlar arzulayıb.

Daha sonra “Nuh yurdu” qəzetinin redaktoru Qafar Qərib, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, yazıçı-jurnalist, şair Asim Yadigar, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Hüseyn Əsgərov, “Şərq qapısı” qəzetinin məsul katibi Muxtar Məmmədov və qəzetin İqtisadiyyat və təhlil şöbəsinin müdiri Səbuhi Həsənov çıxış edərək qəzetin nəşri tarixindən, müasir fəaliyyətindən danışıblar. Çıxış edənlər “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını mətbuat tariximizdə əlamətdar hadisə kimi dəyərləndiriblər.

Sonda “Nuh yurdu” qəzetinin redaktoru Qafar Qəribə, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin bir qrup əməkdaşına və qəzetlə fəal əməkdaşlıq edən qələm sahiblərinə fəxri fərman və hədiyyələr təqdim olunub.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Fənn olimpiadasının şəhər və rayon mərhələsi olub

Muxtar respublikada istedadlı şagirdlərlə aparılan iş sahəsində mühüm tədbirlər həyata keçirilir. Onlarda özünəinam hissini formalaşdırmaq, ayrı-ayrı fənlər üzrə bilik və bacarıqlarını aşkara çıxarmaq, təhsildə sağlam rəqabət yaratmaq məqsədilə istedadlı şagirdlər fənn olimpiadalarına cəlb olunurlar.



Ötən şənbə günü IX-XI sinif şagirdləri arasında məktəblilərin muxtar respublika fənn olimpiadasının I şəhər və rayon mərhələsi keçirilib. 500-dən artıq şagirdin iştirak etdiyi bu bilik yarışında şagirdlər Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, informatika, tarix və coğrafiya olmaqla, 8 fənn üzrə öz bilik və bacarıqlarını nümayiş etdiriblər.

Rayon (şəhər) mərhələsinin nəticələrinə əsasən hər fənn üzrə hər sinifdən ən yüksək nəticə göstərən şagirdlər muxtar respublika mərhələsinin yekun turuna vəsiqə qazanacaqdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Diaqnostika Müalicə Mərkəzində nadir cərrahi əməliyyat aparılıb

Bir neçə gün əvvəl Babək rayonunun Payız kəndindən olan 1964-cü il təvəllüdlü qadın sağ qabırğa altında ağrı, ürəkbulanma, halsızlıq və sarılıq şikayətləri ilə “Naxçıvan Diaqnostika Müalicə Mərkəzi” publik hüquqi şəxsə müraciət edib. Həkim-cərrah Nazim İbrahimov tərəfindən aparılan abdominal ultrasonoqrafiya müayinəsindən sonra xəstənin öd kisəsində 1,8 millimetr ölçüdə daş aşkar olunub. Belə hallar tibbdə xəstələrin daxili öd yollarının genişlənməsi və patologiyası ilə yanaşı baş versə də, xəstədə belə hallara rast gəlinməyib. Üstəlik, qanın biokimyəvi analizində birləşmiş bilirubin normadan 6 dəfə çox olub. Burada əsas maraqlı məqam xəstənin sarılığına səbəb olacaq heç bir patologiyanın aşkar edilməməsi idi. Qan analizində mədəaltı vəzin şiş xəstəliklərində həssas sayılan onkomarkerin normadan iki dəfə çox olduğu da müşahidə edilib. Odur ki, xəstədə onkoloji problemin olma ehtimalı daha da artıb və cərrahiyyə əməliyyatına götürülməsinə qərar verilib. Öd kisəsi xaric edildikdən sonra ümumi öd axarında 1,5x1,0 santimetr ölçüdə insanlarda çox nadir rastlanan parazit növü olan qaraciyər sorucusu xaric edilib. Əməliyyat uğurla nəticələnib. Əməliyyatdan sonra xəstəyə parazit əleyhinə medikamentoz müalicə təyinatı verilib.

Qeyd edək ki, belə zoonotik parazitlər, əsasən, iri və xırdabuynuzlu heyvanlarda infeksiyaya səbəb olur. İnsanlar tərəvəzlərin qəbulu ilə əlaqəli olaraq parazitə təsadüfən yoluxa bilərlər. Belə xəstəliklər tibdə “obstruksion sarılıq” adlanır. Xəstəliyin qarşısının alınması və müalicəsi üçün hələlik hər hansı bir peyvənd və ya vaksin ixtira edilməyib. Obstruksion sarılıq ciddi xəstəlik olub, vaxt itirmədən cərrahi



müdaxilə tələb edir. Bu kimi hallarda ERCP müayinəsinin xəstəliyin diaqnozunun qoyulmasında mühüm rolu vardır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonunun Sərxanlı kənd sakini Şükürov İdris Aşot oğlunun adına olan JN-25 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Nəcəfov Famil Məhəmməd oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Həsənov İlqar Mehdi oğlunun adına olan evin 7051 inventar nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 890